# Azərbaycan televiziya teatrının inkişaf mərhələləri

Milli klassikanın birbaşa televiziya ekranına gətirilməsini hələ repertuarın formalaşdırılması adlandırmaq olmaz.



***Azərbaycan televiziya teatrının tarixi bir-birilə üzvi surətdə bağlı, lakin məzmun və qayəcə müxtəlif beş onilliyi özündə ehtiva edir.***
***Birinci inkişaf onilliyinin (1956-1966) ən vacib iki tendensiyası vardı: repertuar formalaşdırmaq və televiziya teatrı aktyoru yetişdirmək.***

1956-66-cı illər tarixi kəsimində televiziya teatrının inkişafında özünü büruzə verən tendensiyalardan biri də bu idi ki, teleteatr möhtəşəm quruluşlara meyl göstərirdi, yəni Milli Dram Teatrının səhnəsini özünə örnək bilib onu olduğu parametrlərdə ekran müstəvisinə sığışdırmaq istəyirdi. Təsadüfi deyil ki, bu çağlarda televiziyada isləyən rejissorların əksəriyyəti ixtisasca teatr rejissorları idilər. Ona görə də bu rejissorlar tamaşanın davam müddətini haradasa teatr tamasalarının davam müddətinə yaxınlaşdırırdılar və hər cür ixtisar onlara qatı ədalətsizlik, küfr kimi görsənirdi. Sözün əsl mənasında, 1956-66-cı illərdə hazırlanan tamaşalar iri həcmli, monumental, iki və ya bir qədər də artıq saat müddətinə sığısan televiziya tamaşaları idi. Bu tendensiya onu göstərirdi ki, televiziya teatrı özünü tam mənası ilə teatr parametrlərində dərk eləyir və özünün hər addımında milli teatr mədəniyyətinin ənənələrinə söykənir.

1966-76-cı illərin televiziya teatrının inkişaf tendensiyaları bir neçə amillə müəyyənləşir. Bu birinci növbədə videomaqnit lentinə yazılıs epoxasının başlaması ilə əlaqədardır. İkincisi: məhz bu dövrdə Azərbaycan televiziya məkanında ixtisasca telerejissor olan adamlar peyda olacaq. Üçüncüsü də budur ki, bu illərin kóntekstində teleteatrın öz aktyor truppası formalaşacaq. Lakin bu illərin teletamaşaları əvvəlki onilliyin teletamaşalarından köklü surətdə fərqlənməyəcək. Səbəbi də bu ki, "1965-ci ildən texniki vasitə kimi çəkilis pavilyonunda tətbiq olunan KMZİ-4 videoyazı texnikası tamaşaların videomaqnit lentinə yazılısına şərait yaratdı. Sonradan təkmilləşmiş KMZİ-6 texnikası videoyazılısın texnoloji səviyyəsini artırsa da, yalnız videoçəkilisin yazılmasına imkan verən bu avadanlığın videomontaj mexanizmi yox idi.

Leninqrad Optika Mexanika Birliyinin (LOMO) istehsalı olan bu avadanlıq Amerikanın AMPEX firmasının AVR-! videomaqnitofonunu təkrarlasa da, həcminin böyüklüyü və çəkisinin artıqlığı ilə fərqlənirdi. Üstəlik KMZİ maqnitofonlarında dünyada oxsarı olmayan 70 mm-lik enli lentlərdən istifadə olunurdu. Bu lentlərə 40 dəqiqəlik televiziya proqramları, tamaşalar yazmaq mümkün idi. Birbaşa montaj imkanı olmadığından qurulmuş canlı tamaşalar fasiləsiz şəkildə yazıla bilərdi. Yazılış zamanı əgər hər hansı bədii yanlışlıq və ya texniki qüsur baş versəydi, bu prosesi əvvəlcədən təkrar etmək lazım gələrdi. Odur ki, tamasaların əvvəlindən sonuna kimi yazılıb saxlanılmaq imkanı yox idi"(1,s.33). Rejissorlar isə öz sənət mövqelərindən, teatrlarda görüb əxz etdikləri estetikadan, öz sənət ideallarından dönmək istəmirdilər, çəkdikləri tamaşaları teleproqramların tələbləri üzrə komplektləşdirməyi heç xəyallarına belə gətirmirdilər. Onlar pavilyon hüdudlarında qurduqları bir günlük tamaşaları əsl sənət hadisəsi kimi qavrayırdılar. Bu, təbii ki, bir tərəfdən onların yaradıcılıq əxlaqının olduqca yüksək olduğunu nümayis etdirirdi, digər tərəfdən isə bu rejissorların televiziya estetikasının prinsiplərini çevikcəsinə mənimsəməsinə mane olurdu. Elə bunun nəticəsi idi ki, Azərbaycan televiziyasının ekranlarında yorucu tamaşalar meydana gəlirdi. Bunun bir səbəbi də vardı: tamaşa uzun olduqca onun ödəniş haqqı da artırdı. Təbii ki, bu, prinsipcə televiziya teatrının inkişafına mənfi təsir göstərirdi. Başqa bir tərəfdən isə sanki televiziya

